

# Qaytar ana borcunu

**Uşaqlıqda böyükləri sual atəşinə tutardım: "Niyə?", "Nə üçün?", "Nədən". Bir sözlə, dünyanı anlamaq istəyirdim. Bir gün şahidi olduğum bir səhnənin izahını nənəmdən soruşmaq üçün yanına qaçıb gələndə gördüm ki, namaz qılır. Səbirsizliklə namazın qurtarmasını gözlədim.**

Nənəm elə ayağa qalxıb möhürü, təsbehi yığışdırmamış suallarıma başladım: "Nənə, filan əmi niyə atam kimi deyil?". Nənəm nə demək istədiyimi aydınlaşdırmaq üçün soruşdu ki, sənin atan necədir, filan əmi necə? Uşaq məntiqi ila cavab verdim ki, atam qanundur (yəni dediyi söz qanundur), amma filan əminin nə arvadı, nə də uşaqları sözünə baxmır. Qoca nənəm başını bulayıb heç nə demədi. Bu gün isə - yaşanmış ömrün müdrik çağında mənim öz uşaq sualıma öz ağbirçək cavabımı axtarıram: uşaqlıqda valideynini eşitməyən, onu saymayan övladın sonrası necə olur?

Bir məsəl çox məşhurdur: Şeyx Şamildən soruşurlar ki, sən nə etdin ki, bütün Dağıstan sənə belə hörmət edir? Cavab verir ki, əvvəlcə evdə arvadım mənə hörmət elədi, arvadıma baxıb övladlarım, övladlarıma baxıb qonşular, qonşulara baxıb aul, aula baxıb bütün Dağıstan mənə hörmət etdi.

Yüksək elmi-texniki tərəqqi qazanmış, dünyagörüşü, savadı ilə öz sələflərindən qat-qat fərqlənən insanlıq son dövrdə yeni mənəvi problemlərlə üzləşir. Bu problemlər qlobal xarakter kəsb etməsə də, cəmiyyətin özəyi hesab edilən ailəni içəridən qurd kimi yeyib-dağıdır. Xarici ölkələrin istehsalı olan filmlərdə böhranlı vəziyyətini yaşayan ailə mövzusu üstünlük təşkil edir. Əvvəllər bu filmlərdə rastlaşdığım səhnə məni təəccübləndirirdi: ailə üzvləri ildə bir dəfə -yalnız bayram axşamı bir yerə toplaşır. Bu, qərbsayağı ailədir. Lakin deyəsən, yaxın gələcəkdə bizim övladlarımızın da ailəsi elə-beləcə olacaq. Cəmiyyətin özəyi, həmçinin kiçik dövlət hesab olunan ailənin bünövrəsi artıq laxlamaq üzrədir; hətta "ailə" məfhumu belə dəyişir, ailə həcmcə kiçilir, qapalı bir məkana çevrilir.

Son illər biz - azərbaycanlılar arasında, ən çoxu da ailələr daxilində və ailə üzvləri arasında baş verənlər hamı kimi, məni də düşündürür, narahat edir. "Bizə nə olub?" sualının ünvanı hər kəsədir. Niyə eltilər (qayın arvadları), baldız-gəlinlər, hətta bacılar belə daha bir yerdə düşbərə-qutab bişirmir, toplaşıb bayram şirniyyatı hazırlamır? Sevincimizi, varımızı bölüşmürük - birdən gözə gələrik? Hətta qonşuya bayram payı da göndərmirik: hamının hər şeyi var (məntiqə bax)! Daha onu demirəm ki, əmiuşağı, xalauşağı bir-birinin paltarını geyərdi, evində yatıb-durardı: nə bunu heç kəs üzə vurardı, nə də digəri bundan sıxıntı çəkərdi.

Müşkül problemlər də daha bir yerdə, böyüklərin iştirakı ilə həll edilmir. İndi hamı ağıllıdır (?!): heç kim məsləhətləşmir (gen donlar dəbdə deyil!), heç məsləhəti eşitmək belə istəmirlər. Bir-birimizə qarşı soyuqluq, etinasızlıq, böyüyü saymamazlıq baş alıb gedir, qohumluq əlaqələri günbəgün deyil, saatbasaat zəifləyir. Daha böyüklər kiçikləri nəinki tənbeh etməyə, heç öyüd verməyə də ürək etmir (bəlkə, mənasız olduğunu görərək öz hörmətini saxlayır). Gözlə görüb dərk edərək barışa bilmədiyim məqam, "niyə"lər burulğanında çapalayıb, üzüb üzə çıxa bilmədiyim düşüncələr, qəlbimin süzgəcindən keçməyən, yalnız fikirlərimi deyil, qəlbimi, ruhumu əzən, incidən duyğular da elə bundan ibarətdir.

Doğrudur, valideynin, xüsusilə ananın müqəddəsliyi, aliliyi haqqında həm dinlər, həm də ədəbiyyat və incəsənət öz sözünü demişdir. Anaya həsr edilmiş saysız-hesabsız sənət nümunələri yaradılmışdır. "Ögey ana" filmində aktrisa Nəcibə Məlikovanın əlini sürahinin üzərinə qoyub "Mən bu evə ana kimi gəlmişəm, İsmayıl da mənə "ana" deyib çağıracaq!" nidası gənc gəlinlərə nümunə olmalıdır - qurduğu ailəyə qəlbən bağlılığı, onun problemlərinin həllində özünün mövqeyi ilə. Atalar "Ər evi - gor evi!" deyiblər. Bəs bu deyimlər, atalar sözləri nə tez unuduldu?!.

Azərbaycanlıların milli xüsusiyyətlərindən biri də odur ki, valideyn oğul ilə birlikdə yaşamağı üstün tutur (kürəkən "yad oğlu"dur). Qız ata evinə yalnız qonaq kimi gəlib-gedə bilər, necə deyərlər, "əzizimin evinə əzilə-əzilə". Xalq şairi Bəxtiyar Vahabzadənin yaradıcılığından bir nümunə də göstərmək istərdim; şeirin qısa məzmunu belədir: şair yenicə ailə qurmuş qızına müraciətlə deyir ki, qızım, sən bu ailənin əzizisən, bu gün isə artıq ata evinə qonaq kimi gəlmisən. Arzum budur ki, həmişə bu evə elə qonaq kimi gələsən.

"Böyük dayaq" filmində ata - ailənin böyüyü elə gəlinin yanındaca oğluna açıqlanır ki, gəlin öz yerini, həmçinin böyüyün-kiçiyin yerini bilsin, həddini aşmasın. Müəllif də sarı simə toxunub - gəlin ana öyüdü, ata zəhmi görməyib - uşaq evindəndir.

Deyirlər ki, qayınana-gəlin problemi həll olunası, düzələsi deyil. Lakin yenə də suallar məni rahat buraxmır: ailə necə olmalıdır? Xalq artistimiz Elmira Şabanova bir dəfə televiziya müsahibəsində dedi ki, oğul mütləq ayrı yaşamalıdır. Mən isə sual verirəm: niyə? Ötən əsrin ilk rüblərində evdar qayınana savadsız, gəlinlər isə müasir həyatla bir addımlayan gənclər idi və hətta o zaman ailə münasibəti belə kəskin xarakter kəsb etmirdi. Son onilliklərdə isə ictimai həyatda fəal olan gəlinlər nə üçünsə külfət içində yaşamaq istəmir, hətta müəyyən "şərtlər", tələblər irəli sürülür. Bəzən isə oğul bununla barışa bilmir (qeyrətinə sığışdırmır) və nəticədə yeni qurulmuş ailə dağılır. Çox zaman valideynlər əvvəlcədən oğulun ev-eşiyini ayırır və nəticədə bir ömür sərf edib oğul böyüdən ana gəlin qulluğundan, oğul istəyindən məhrum olur.

Müdrik şair, dədə Sabir "Ey fələk, zülmün əyandır" adlı bəhri-təvilində "Qıza lazımdır əgər bilmək..." qızın görəcəyi işləri sadalayıb sonra da əlavə edir ki, "...əgər bunları da bilməsə, eyb eləməz, ancaq qıza ən lazımlı üç məsələni bilməyidir, bilsə, olur əmrə kifayət: biri oldur ki, gəlin get-

diyi evdə bacarıb qayınataya, qayınanaya çımxıra bilsin ki, ona söz deməyə etmiyə bir kimsə də cürət..". Bəli, bu o zamanlar idi ki, gəlin ayağını yerə döyüb ayrı ev istəmirdi, qayınata-qayınana hələ ona söz deyə bilirdi.

Eyni intellektual səviyyəyə malik gəlin-qayınana məişətdə qarşılaşdıqca aralarındakı ziddiyyət, anlaşılmazlıq onları bir-birindən uzaqlaşdırır. Bir evdə, yaxud ayrı-ayrı yaşasalar da, daxilən yad olurlar: üzə vurulmasa da, daimi bir gərginlik, qarşıdurma günü-gündən artır. Onların eyni məsələyə ikili münasibəti, güzəştə getmək istəməməsi ailənin digər üzvlərinə də mənfi təsir göstərir: yavaş-yavaş fikir ayrılıqları yaranır, düşüncələr haçalanır, dünənə kimi mehriban olan bir ailənin içinə nifaq toxumu düşür. Əsl xoşbəxtliyin dəyəri unudulur. Yaxın ikən, doğma ikən uzaqlıq, ayrılıq meydana çıxır. Ən asan isə odur ki problemlərimizi zəmanənin ayağına yazırıq. Bu isə artıq problem deyil, əsl dərddir, içimizi oyum-oyum edən dərd.

Etiraf edək ki, hər bir azərbaycanlı ailəsi məhz oğul payı istəyir, oğulun dünyaya gəlişinə sevinir. Oğul arxadır, "düşmən çəpəridir" deyirik. Bəs oğul öz üzərinə düşən məsuliyyəti dərk edərək onu yerinə yetirirmi? Cəmiyyət içərisində tanınan-sayılan kişi evdə necə oğul, necə qardaş, necə ərdir? Kimi dindirsən, deyəcək ki, ailə başçısı kişidir. Bəs niyə bu başçılar ailənin nizam-intizamını tənzimləyə bilmir? Deyirəm, yəni hökmlü-zəhmli Cahandar ağa belə dəyişib?

Bəzən oğul yüksək rütbəyə, vəzifəyə çatdıqda və yaxud bolluca pul qazana bildikdə artıq valideyni saymır. Sanki övlad ilə valideyn arasında bağlılıq yalnız maddi vəziyyətlə nizamlanır. C.Cabbarlının "Sevil" əsərində oğul - Balaş atasının əyin-başını bəyənmir, cəmiyyətdə kiçicik bir mövqe qazanan kimi özünü "ali irq"ə mənsub hesab edir.

Oğullarımızı əzizləyirik, "pis uşaqlardan" qoruyuruq. Nəticədə isə qorxaq oğul böyüyəndə "gözüqıpıq" acizə, "dezertir" əsgərə, laqeyd insana, "ağcıyər" çinovnikə, sonra da həmin "qızbibi" oğullar "arvadağız" ərlərə çevrilir. Nağıllarda qızlar ona elçi düşən oğlanı sınağa çəkərdi: ağlını, hazırcavablılığını, bacarığını, nəhayət və ən vacibi - hünərini, şücaətini, qorxmazlığını imtahan edərdi.

Qocalıb əldən düşmüş qayınana artıq analıq ixtiyarını, ata isə səlahiyyətini, aparıcı rolunu itirir. Ən adi məişət işlərini görməyə gücü-iqtidarı olmayan ana, xüsusilə arvadını itirmiş ata birdən-birə övladları, xüsusilə gəlin üçün artıq və ağır yükə çevrilir. Bütün bunları görən, ürəyində isə öz fiziki zəifliyi, möhtac vəziyyəti ilə barışa bilməyən valideyn ələbaxım olur. Bu vəziyyəti dərk edərək yazıqlaşmaq istəməyən valideynin ürəyi isə yenə də balasının yanındadır. O heç zaman oğlundan şikayətçi olmaz, eləcə gəlindən gileylənər. Bəlkə də gəncliyində - işli-güclü vaxtında, boğazından kəsib övladına yedirib-geyindirdiyi zamanda 25-30 il sonrakı gün-güzəranını ona desəydilər, inanmazdı. Hələ dam altında tək-tənha qalıb ölümünü gözləyən pərişan ovqatlı qocanın sarsılmış qəlbini didib-parçalayan ümidsizliyindən, daşa çırpılıb puç olan arzularından, ona göz dağı olan nankor övladının laqeydliyindən danışmıram... Pensiyasındakı qəpiklərə qane olub minnət götürmək istəməyən qocanın, övlad intizarı ilə gözü qapıda qalan kövrək qarının... oğlu var (!?). Rəsul Rza yazırdı:

*Deyin, söyləyin:*
*Hansı təbib bağlayar*
*Ruhun gözə görünməz*
*Göynəyən yarasını?*

Azərbaycanda qocalar evi azdır, lakin orada məskunlaşmış, az qala bütün dünyadan rəncidə olmuş hər kəs bizə birə-yüz görünür. Çünki biz bu faktla, sadəcə, barışmaq istəmirik. Ədəb-ərkan, mənəvi bağlılıq, nəciblik, bitib-tükənməyən sevgi, ehtiram umulan yerdə nə ilə rastlaşırıq? Rifah halımızın, yaşayış-güzəranımızın yaxşılaşdığı bir zamanda ürəklərimiz bir-birimizə qarşı kilidsiz, qıfılsız bağlanır, uzaqlaşır, soyuqluq, etinasızlıq baş alıb gedir, bizləri də öz arxasınca çəkib aparır.

Cəmiyyətimizdə gizli, yaxud açıq-aşkar görünən, üzə çıxan problemlər önündə tərəfimizdən göstərilən "karlığın", "korluğun", "lallığın" diaqnozunu qoymaq çətin imiş. Dəyişən mənəvi dəyərlərin göynərtisi, ağrısı güclü və qarşısıalınmazdır.

Bəs biz, görəsən, dərk edirikmi ki, ömrünü balalarına çıraq etmiş, ahıl vaxtında isə mənəvi ağrı və iztirablar içində çapalayan cəfakeş valideynlərimizə nə zər-zibalı libas, nə əyləncə (nə də dost yanında öyünmək üçün bahalı başdaşı), bir sözlə, dünya neməti lazım deyilmiş. Adicə diqqət, qayğı, istək və hörmət!!! Deyirəm, bəlkə, daha susmayaq - gur səslə deyək: qaytar ana borcunu!

*Varmı elə övlad borcun ödəyə,*
*"Ana haqlarını qaytardım" - deyə.*
*Çalışıb gündüzün qatsa gecəyə,*
*Heç sənin haqqını ödərmi, anam?*
*Bu haqq üstümüzdən gedərmi, anam?!*

*Gecələr sübhədək sən oyaq qaldın,*
*Mən hey ağladıqca sən layla çaldın,*
*Mən əziyyət verdim, sən qadam aldın,*
*Uyudum rahatca qolunda, anam,*
*Fəda olsun canım yolunda, anam.*

**Elmira QASIMOVA**